**МИНИСТЕРСТВО СЕЛЬСКОГО ХОЗЯЙСТВА
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**НАУЧНО - ИССЛЕДОВАТЕЛЬСКИЙ ИНСТИТУТ
ЭКОНОМИКИ СЕЛЬСКОГО ХОЗЯЙСТВА**

*На правах рукописи*

**МИКАИЛ ОРХАН ИСРАФИЛЬ ОГЛЫ**

# УСОВЕРШЕНСТВОВАНИЕ МЕХАНИЗМА ЭКСПОРТА ПРОДОВОЛЬСТВЕННОЙ ПРОДУКЦИЙ НА ЕВРОПЕЙСКИЙ РЫНОК ИЗ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**Специальность: 5312.01 – "отраслевая экономика"**

**А В Т О Р Е Ф Е Р А Т**

**Диссертации на соискание ученой степени
доктора философии по экономике**

**БАКУ-2018**

**AZƏRBAYCAN RESPUBLİKASI KƏND
TƏSƏRRÜFATI NAZİRLİYİ**

**KƏND TƏSƏRRÜFATININ İQTİSADİYYATI
ELMİ – TƏDQİQAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**MİKAYIL ORXAN İSRAFİL oğlu**

# AZƏRBAYCAN RESPUBLİKASINDAN AVROPA BAZARINA ƏRZAQ MƏHSULLARI İXRACI MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

**İxtisas: 5312.01 – "sahə iqtisadiyyatı"**

**İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq
üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2018**

Dissertasiya işi Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutunda yerinə yetirilmişdir.

.

**Elmi rəhbər:** iqtisad üzrə elmlər doktoru, professor
**Salahov Sadıq Vəli oğlu**

**Rəsmi opponentlər:** iqtisad üzrə elmlər doktoru, dosent
**Hüseyn Ramil Zahid oğlu**
iqtisad üzrə fəlsəfə doktoru
**Babayeva Vüsalə Musa qızı**

**Aparıcı təşkilat:** Azərbaycan Dövlət Aqrar Universiteti

Müdafiə "______".__________2018-ci ildə saat ____ -da Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutu nəzdində fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən FD.04.014 Dissertasiya Şurasının iclasında olacaqdır.

**Ünvan:** Bakı şəhəri, N. Nərimanov rayonu, Az.29, 8-ci Köndələn, III mərtəbə, akt zalı.

Dissertasiya işi ilə Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutunun kitabxanasında tanış olmaq olar.

Avtoreferat "_____" ________ 2018-ci ildə göndərilmişdir.

**FD.04.014 Dissertasiya Şurasının**
**elmi katibi, iqtisad üzrə fəlsəfə doktoru: V.R.Rzayev**

**Çapa imzalanıb 15. 03. 2018**
**Sayı 100. Formatı 60x84 1/16**

**KTİETİ-nun "Elmi əsərlərinin" buraxılışı bölməsində çap olunmuşdur**

**(012) 514-84-10**

**Mikayil Orkhan İsrafil**

## İmprovement of the mechanism of export of food products from Azerbaijan Republic to European market

## SUMMARY

Scope and structure of dissertation work: Dissertation work covers 152 pages consisting of introduction, three chapters, conclusion and literature list. There are 16 tables and 10 photos in the work.

Topicality of text has been grounded, condition of study of problem has been estimated, goal and duties, object and subject of research, its theoretical – methodological basis, database have been interpreted in the introduction part of the work. Scientific innovation, practical essence of research, testing of its results and condition of use have been summarized here in accordance with requirements.

Theoretical and methodological problems of export, theoretical problems of determination of export price, significance of economic efficiency of Eastern Partnership program of European Union, and its scientific theoretical basis are studied In first chapter of dissertation work titled “Theoretical and methodological basis of foreign commercial policy”.

First chapter of dissertation has been devoted to the forms of entry in foreign markets due to export may realize the delivery of its products to foreign markets by several methods.

Existing condition of export of food from Azerbaijan Republic to European market has been studied and analyzed in the second chapter of dissertation. This chapter is devoted to significant problems such as international trade of food products and their some features, food export in conformity with generalized preferences system, Institutional basis of food export from Azerbaijan Republic to European market, activity of state policy realized for stimulation of food export from Azerbaijan Republic to Europe.

Methods of increasing of capacity of food export from Azerbaijan Republic to European market and improvement of its structure are studied and involved in analysis in third chapter of dissertation. Directions of improvement of certification mechanism of exporting agricultural products, problems of carriage and logistics of export goods, improvement of the process of packing and marking of exporting agricultural products, improvement of economic regulation policy of state on export and import of agricultural products and food have been analyzed here.

Offers and recommendations arisen in connection with results obtained in the process of study have been interpreted in the end of dissertation.



## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı**: Qloballaşma mühitində beynəlxalq əmək bölgüsünün dərinləşməsi ümumilikdə ticarət inkişafını şərtləndirir. Lakin etiraf etməliyik ki, kənd təsərrüfatı xammalının və ərzaq məhsullarının beynəlxalq ticarətinin artım sürəti hazır sənaye məhsullarına nisbətən geri qalır. Ona görə də dünya ticarət dövriyyəsində aqrar sahə məhsullarının xüsusi çəkisi aşağı olmaqla cəmi ixracın 12 %-ni təşkil etməkdədir.

Real gerçəklikdə idxal və ixrac istər fiziki və istərsə də dəyər baxımından davamlı olaraq artsa da aqrar sahə məhsullarının ixracında ciddi artım görülmür. Bütövlükdə kənd təsərrüfatı istehsalının həcminə və eləcə də ərzaqla təminat səviyyəsinə görə ayrı-ayrı ərazi və ölkələr bir-birindən kəskin fərqlənirlər. Beynəlxalq ticarətin inkişafı nəticəsində dünya miqyasında bir ölkədə olan qıtlıq digər ölkələrdə olan artıq məhsullarla əvəz edilə bilir. Beləliklə, dövlətlər arasında ərzaq məhsullarının satışı dövriyyəsi həyata keçirilir.

Aqrar sahədə bazar münasibətlərinə keçid sahibkarlığın inkişafı və azad rəqabət mühitinin formalaşması ilə nəticələnmişdir. Kənd təsərrüfatı əmtəə istehsalçılarının iqtisadi müstəqilliyi təmin edildiyindən, təsərrüfat subyektləri məhsul istehsalını, satışını, və gəlirlərin bölüşdürülməsini sərbəst şəkildə müəyyənləşdirirlər. Bunun nəticəsidir ki, kənd təsərrüfatında iqtisadi inkişaf və məhsul istehsalının artırılması təmin edilir.

Dünya Bankının hesablamalarına görə, Azərbaycan davamlı şəkildə orta gəlirli ölkələr qrupunda qalmaq istəyirsə, 2025-ci ildə adambaşına 5 min manat (2007-ci ilin manatı ilə) ÜDM istehsal etməlidir ki, bu da qeyri-neft sektorunda orta illik 6,5 faiz artım tələb edir. Bunun üçün Azərbaycan həm idxalın əvəzlənməsi, həm də qeyri-neft ixracının genişləndirilməsini əsas hədəf seçməlidir. Qeyri-neft ixracı sahəsində kənd təsərrüfatı və ərzaq məhsulları istehsalı indiki məqamda əsas yer tutur. Nəzərə almaq lazımdır ki, həm Böyük İpək Yolu, həm də Şimal-Cənub dəhlizinin Azərbaycandan keçməsi təkcə karbohidrogen deyil, digər malların da daşınması üçün ona geniş imkanlar yaradır. Bundan əlavə Azərbaycan xidmət sferası (turizm, maliyyə-bank, informasiya-kommunikasiya texnologiyaları və s.) üzrə ixrac imkanlarını genişləndirə bilər.

Resursla zəngin olan və olmayan ölkələrin təhlili göstərir ki, hökumətlər özəl sektorun dəstəklənməsi və iqtisadiyyatın diversifikasiyası üçün təxminən eyni addımları atmışlar (məsələn, Hindistanda

kompyuter proqramları, üzüm və qarğıdalı; Tayvan və Malayziyada elektronika, palma yağı və digər məhsullar; Çilidə qızıl balıq yetişdirilməsi və şərab istehsalı; Uqandada balıq sənayesi; Kenyada gülçülük). Əgər Azərbaycan DB-ın klassifikasiyasında orta gəlirli ölkələrin daha yüksək ranqına (alıcılıq qabiliyyəti pariteti əsasında adambaşına 20 min ABŞ dolları ÜDM) iddia edirsə, onda ölkə qeyri-neft ixracını qarşıdakı 10 il ərzində 50 dəfə artırmalıdır.

Müxtəlif elmi yanaşmalardan istifadə etməklə qeyri-neft sahəsində rəqabət üstünlüyününə malik və ixracyönümlü sahələr seçilməlidir. Bu zaman aşağıdakı prinsiplər əsas götürülməlidir: Regional tarazlıq; sahələrarası balans; məşğulluğun artırılması; iqtisadi təhlükəsizlik; ərzaq təhlükəsizliyi; geoiqtisadi tarazlıq; ekoloji tarazlıq; daxili resurs dəyəri daxil olmaqla iqtisadi səmərəlilik; innovasiya; dövlət siyasəti və s.

Hazırda Azərbaycanda istehsal olunan məhsullara dünya bazarında marağın artması ilə bərabər, bu malları alan ölkələrin sayıda getdikcə artır. Xarici ticarətin strukturu dəyişikliyə uğradığı kimi, onun ticarət partnyorlarının da tərkibi dəyişib. Belə ki, əgər ölkənin ticarət partnyorlarının sayı 1997-ci ildə 84, 1999-cu ildə isə 121 ölkə olmuşdursa, 2016-cı ildə onların sayı 150-ə yaxın olmuşdur.

Ölkə iqtisadiyyatı inkişaf etdikcə idxal-ixracın strukturu da zənginləşir. Son illər ərzində xaricə ixrac olunan mühüm növ məhsulların siyahısı artmışdır. 2003-cü ildə Azərbaycandan 1218 adda mal ixrac olunurdusa 2015-ci ildə bu rəqəm 2000-i keçmişdir. Xarici ölkələrə göndərilən malların əsas hissəsini mineral məhsullar, o cümlədən xam neft və neft emalı məhsulları təşkil edir. Bununla yanaşı, qeyri-neft məhsullarından ərzaq malları, az qiymətli metallar və onlardan hazırlanan məmulatlar, plastik kütlə, kauçuk, rezin və onlardan hazırlanan məmulatlar, kimya sənayesi məhsulları, mirvari, qiymətli daşlar və metallar, onlardan hazırlanan məmulatlar, toxuculuq materialları ixrac olunmuşdur. Eyni zamanda, Azərbaycandan ixrac olunun ərzaq məhsulları sırasında çay, bitkidən hasil olan piylər və yağlar, marqarin, şəkər, makaron məmulatları, meyvə və tərəvəz konservləri də xüsusi çəkiyə malik olub.

Dövlət tərəfindən kənd təsərrüfatına məqsədyönlü şəkildə qoyulan investisiyalar artıq öz bəhrəsini verir. Belə ki, ötən illərlə müqayisədə ölkəmizə bir sıra kənd təsərrüfatı məhsullarının idxalı azalmış, ixracı artmışdır. Bu da təsadüfi deyil. Çünki, ölkədə bu sahədə xüsusi tədbirlər həyata keçirilir, mühüm dövlət proqramları qəbul edilir. Bu baxımdan 2008-ci il avqustun 25-də təsdiq olunmuş



стимулирования экспорта продуктов в Европу из Азербайджана.

В третьей главе диссертации изучены и привлечены к анализу «Увеличение объема экспорта продуктов на европейские рынки из Азербайджанской Республики и совершенствование структур». Исследовано совершенствование механизма сертификации продуктов сельского хозяйства, вопросы перевозки и логистики экспортных товаров, совершенствование процессов маркировки и упаковки экспортируемых продуктов питания и направления путем совершенствования государственной политики экономическому регулированию по импорту-экспорту продуктов сельского хозяйства и питания.

В конце диссертации изложены предложения и рекомендации, выдвинутые по результатам, полученным в процессе исследования.

**Микаил Орхан Исрафиль оглы**

**Усовершенствование механизма экспорта продовольственной продукций на Европейский рынок из Азербайджанской Республики**

## РЕЗЮМЕ

Объем и строение диссертационной работы: Диссертация состоит из введения, трех глав, заключения и списка литературы, охватывая 152 страницы. В работе представлены 16 таблиц и 10 картинок.

Во вступительной части работы обоснована актуальность темы, оценено состояние изученности проблемы, изложены цели и задачи, объект и предмет исследования, его теоретически-методологические основы, информационная база. Здесь в соответствии с требованиями резюмированы научная новизна, практическая значимость исследования, проведение тестов его результатов и состояние использования.

В первой главе диссертации под названием «теоретические и методологические основы внешнеторговой политики», исследуются теория и методология экспорта, теоретические вопросы определения цены на экспорт, суть экономической эффективности программы Восточного Партнерства Европейского Союза, научно-теоретические основы.

В первой главе диссертации говорится о том что, экспортеры могут осуществить доставку своей продукции на зарубежные рынки по нескольким вариантам, а также о формах вступления на зарубежные рынки.

Во второй главе диссертации, изучено и анализировано «Текущее состояние экспорта продуктов питания на европейские рынки из Азербайджанской Республики». В этой главе сопоставляются некоторые особенности международной торговли продуктами питания, экспорт продуктов в соответствии с обобщенной Системой Преференций, институционные основы экспорта продуктов питания на европейские рынки из Азербайджана, важные задачи деятельности государственной политики, осуществляемой для



"2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" xüsusi əhəmiyyət daşıyır.

Avropa İttifaqı ilə ölkəmiz arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq 2011-ci ildə keyfiyyət və miqyas baxımından yeni mərhələyə qədəm qoymuşdur. Belə ki, Aİ-nin Tvinninq aləti çərçivəsində benefisiarı Kənd Təsərrüfatı Nazirliyi olan "Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Xidmətinin institusional gücləndirilməsi çərçivəsində heyvanların identifikasiyası və qeydiyyatına dəstək" və ikinci benefisiarı Kənd Təsərrüfatı Nazirliyi olan "Azərbaycanda kənd təsərrüfatı sahəsində ilkin peşə təhsilinin gücləndirilməsi" layihələri 2011-ci ildə fəaliyyətə başlamışlar.

Azərbaycan, 2015-ci il statistikasına əsasən Aİ-nın ticarət tərəfdaşları sırasında 39-cu yeri tutur (Avropa İttifaqının idxal üzrə qabaqcıl tərəfdaşları arasında 31-ci və Avropa İttifaqının ixrac üzrə qabaqcıl tərəfdaşları arasında 56-cı yerləri tutur).

Azərbaycan Avropa İttifaqına əsasən mineral yanacaq, sürtkü yağları və əlaqədar materiallar (98, 8%), nəqliyyat avadanlıqları (0, 4%), ərzaq və canlı heyvanlar (0, 3%) ixrac edir. Avropa İttifaqından Azərbaycana isə əsasən nəqliyyat avadanlıqları (44, 7%), müxtəlif məmulatlar və mallar (32, 4%), kimyəvi və əlaqəli məhsullar (10, 1%), ərzaq və canlı heyvanlar (4, 6%), içkilər və tütün (3, 8%) idxal olunur.

Azərbaycanda qeyri-neft iqtisadiyyatının davamlı inkişafında Avropa İttifaqına ərzaq ixracının genişləndirilməsi mühüm rol oynayır. Bu mənada "Azərbaycan Respublikasından Avropa bazarına ərzaq məhsulları ixracı mexanizminin təkmilləşdirilməsi" mövzusunda dissertasiya işi mühüm əhəmiyyət kəsb edir. Avropa Birliyi bazarına kənd təsərrüfatı və ərzaq məhsulları ixrac edilərkən Avropa Birliyi trəfindən irəli sürülüən tələblər: məhsul istehsalının standartlaşdırılması, sertifikatlaşdırılması, etiketləndirilməsi və qablaşdırılmasının Avropa Birliyi sisteminə uyğunlaşdırılması üzrə qeyd olunan məsələlələr dissertasiya işində geniş təhlil olunmuş və müvafiq təklif və tövsiyyələr verilmişdir.

**Tədqiqatın öyrənilmə vəziyyəti:** Aqrar bazarın formalaşması, istehsal potensialından istifadənin səmərəliliyi və ərzaq ixracının artırılması son dövrlər iqtisadiyyatın ən aktual problemlərindən biri kimi tədqiq edilməyə başlamışdır. Hazırda ərzaq ixracının, o cümlədən, Avropa İttifaqına ərzaq ixracının genişlənməsi, ixracın tərkib elementləri, ixraca təsir edən amillərin öyrənilməsi iqtisadçı alimlərin

apardıqları tədqiqatların əsas motivini təşkil etməkdədir. Adı çəkilən problemlə bağlı aqrar iqtisadçılardan Z. Ə. Səmədzadə, A. A. Nadirov, A. İ. Məmmədov, Ə. Ç. Verdiyev, İ. H. İbrahimov, S. V. Salahov, B. X. Ataşov, R. Ə. Balayev, H. A. Xəlilov, İ. H. Alıyev, R. K. İsgəndərov, V. Ə. Qasımlı, İ. Ş. Qarayev, M. C. Hüseynov, R. Z. Hüseyn, V. H. Abbasov, E. İ. Qasımova, N. V. Əlibəyov və başqaları dəyərli elmi tədqiqatlar aparmışlar.

Təbiiki, dissertasiya işində adı çəkilən iqtisadçı alimlərin apardıqları dəyərli tədqiqatlara əsaslanaraq araşdırmalar həyata keçirilmişdir. Qeyd etmək lazımdır ki, iqtisadçı alimlərin tədqiqatlarında problemin ayrı-ayrı tərəfləri araşdırılmışdır. Avropa İttifaqına ərzaq ixracının özünəməxsus spesifik xüsusiyyətləri əsas götürülməmişdir. Bu baxımdan dissertasiya işində Azərbaycandan Aİ-na ərzaq ixracı və onun iqtisadi, təşkilati və institutsional bazası tədqiqedilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi Azərbaycanda ixracın genişlənməsi və strukturunun təkmilləşməsi istiqamətində elmi cəhətdən əsaslandırılmış praktik əhəmiyyətli təkliflər işləyib hazırlamaqdan ibarətdir. Qarşıya qoyulan məqsədə müvafiq olaraq dissertasiya işinin yerinə yetirilməsində aşağıdakı vəzifələr müəyyənləşdirilmiş və onun yerinə yetirilməsinə nail olunmuşdur:

- Azərbaycandan ərzaq ixracının nəzəri əsaslarının öyrənilməsi;
- Avropa bazarının tələblərinə uyğun olaraq sertifikatlaşdırma məsələlərinin təhlil edilməsi və Azərbaycanda tətbiqi imkanlarının müəyyənləşdirilməsi;
- Avropa bazarının tələblərinə uyğun olaraq markalanma və qablaşdırma şərtləri üzrə təhlilin aparılması və Azərbaycanda tətbiqi imkanlarının müəyyənləşdirilməsi;
- ərzaq ixracının inkişaf meyllərini və ona təsir edən amillərin müəyyən edilməsi;
- ərzaq ixracının formalaşmasına təsir göstərən amillər müəyyənləşdirilməsi;
- Avropa İttifaqına ərzaq ixracının genişlənməsində dövlət siyasətinin təkmilləşdirlməsi istiqamətlərinin müəyyən edilməsi.

**Tədqiqatın obyekti** kimi Azərbaycan Respublikasında ərzaq məhsulları istehsalı sahəsi təşkil edir.

**Tədqiqatın nəzəri və metodoloji əsaslarını** Azərbaycandan Avropa İttifaqına ərzaq ixracının genişlənməsi və strukturunun təkmilləşməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin Fərman



likasının sahələrarası balansı əsasında apardığımız tədqiqatlar nəticəsindəhesablanıb ki, dövlətin tənzimlədiyi qiymətlər - neft məhsulları, elektrik enerjisi, qaz, su və komunal tarifləri 25 faiz aşağı endirilsə, ölkədə ümumi inflyasiya səviyyəsi 2 faiz azalacaq.

Bu zaman fiskal nöqteyi-nəzərdən dövlət gəlirlərinin azalacağı barədə arqument əsaslandırılmış görünmür. Belə ki, milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artması sonda vergi bazasının genişlənməsinə gətirib çıxarır ki, bu da özlüyündə dövlətin gəlirlərinin gələcək perspektivdə artımınışərtləndirir. Laffer əyrisi məhz vergi dərəcələrinin azalması və vergi bazasının genişlənməsi hesabına dövlət gəlirlərinin artımını ehtiva edir.

Dövlət tərəfindən tənzimlənən qiymətlərin aşağı salınması ərzaq məhsullarının da maya dəyərinin ucuzlaşmasına və rəqabətqabiliyyətinin güclənməsinə gətirib çıxara bilər.

Tədqiqat işi üzrə aşağıdakı tezis və məqalələr elmi jurnallarda, konfrans materiallarında dərc olunmuşdur.

1. Avropanın ərzaq bazarlarına ixrac mexanizminin təkmilləşdirilməsi yolları., Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının Təşkili və İnstitutunun Elmi əsərləri, №4, Bakı, 2011., 0,2 ç.v.

2. Azərbaycan Respublikasının ixrac siyasətinin təkmilləşdirilməsi yolları., Kooperasiya Elmi-nəzəri jurnal №3 (26) – 2012., 0,3 ç.v.

3. Рынок пищевых продуктов Европы., Международный технико-экономический журнал №3, 2013., 0,3 ç.v.

4. Azərbaycandan Avropaya ərzaq ixracının stimullaşdırılması üçün həyata keçirilən dövlət siyasəti., "Azərbaycan aqrar elm" jurnalı №3, 20150.,2 ç.v.

5. Avropaya ərzaq ixracının dövlət tənzimlənməsi mexanizminin təşkili məsələləri., Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun "Elmi əsərləri" №3, 2015., 0,4 ç.v.

6. Azərbaycan Respublikası aqrar iqtisadiyyatının xarici-iqtisadi əlaqələrinin inkişafında müasir meyillər., Bakı Biznes Universiteti, №3, 2015., 0,1 ç.v.

7. Azərbaycanda ərzağın idxalı ixracı üzrə ticarət şərtləri və iqtisadi tənzimləmə siyasətinin qiymətləndirilməsi., Azərbaycan Milli Elmlər Akademiyasının "Elmi əsərlər" jurnalı №4, 2017., 0,3 ç.v.

da göstərir ki, qeyri-neft sektorunun inkişafında birbaşa xarici investisiyalar mühüm rol oynayır.

Azərbaycan özünün kiçik daxili bazarı, amma regional ixrac imkanlarını nəzərə alıb ixracyönümlü xarici investisiyaların (export-oriented FDİ) və inkişaf etmiş infrastruktur və ucuz, həmçinin kvalifikasiyalı işçi qüvvəsinə əsaslanıb səmərəliliyə söykənən xarici investisiyaların (efficiency-seeking FDİ) cəlbində maraqlı olmalıdır. Dövlətlər investisiyaları cəlb etmək üçün aşağıdakı istiqamətlərdə fəaliyyət göstərirlər: a) Xarici birbaşa investisyalar üçün siyasət çərçivəsi müəyyənləşir; b) biznesin həyata keçirilməsi üçün tədbirlər görülür; c) xarici investisiyalar motivasiya edilir.

8. Azərbaycan həmçinin Avropa və Çinin transmilli şirkətlərini cəlb etməklə kənd təsərrüfatı, ərzaq və içki sənayesinə xarici investisiya axınını təmin edə bilər. "Cənub-Cənub investisiya trendi" çərçivəsində Avropadan Afrikaya; Çindən Afrika və Cənub-Şərqi Asiyaya; Körfəz ölkələrindən isə Afrika və Cənub-Şərqi Asiya dövlətlərinə investisiya axını baş verir. Belə investisiya vektorlarının üzərində yerləşən Azərbaycan mütləq Avropaya ərzaq ixracı yönümlü birbaşa invetisiyaların cəlbini sürətləndirməlidir. Məsələ ondadır ki, xüsusilə körfəz ölkələri və Çində izafi maliyyə kütləsi var ki, investisiya olaraq yatırılması zəruridir, başqa tədəfdən Azərbaycan üçün isə qeyri-neft ixracını diversifikasiya etmək prioritetdir.

9. Qlobal iqtisadi böhran şəraitində ərzaq istehsalının rəqabətliliyi dövlət tərəfindən iki istiqamətdə tənzimlənməlidir. Bir tərəfdən Azərbaycanın ərzaq istehsalında mənfəət norması digər iqtisadiyyat sahələrində analoji göstəricilərlə müqayisədə müvafiq optimal həddə olmalıdır. Digər tərəfdən isə Azərbaycanın ərzaq istehsalında mənfəət norması ticarət partnyorlarımızda kənd təsərrüfatının eyni norması ilə uyğun səviyyəyə çatmalıdır.

Ərzaq istehsalında iki meyar əsasında tənzimlənən mənfəət norması nəticə etibarı ilə bu sahəyə daxili və xarici mənbələr hesabına investisiya təşviqini gücləndirə və sahəni daha rəqabətədavamlı vəziyyətə gətirə bilər.

10. 2008-ci ildən başlayan qlobal iqtisadi böhranın milli iqtisadiyyata təsirini minimuma endirmək, habelə ərzaq məhsullarının maya dəyərini aşağı salmaqla rəqabət qabiliyyətini gücləndirmək üçün dövlət tənzimlənən qiymətlərin aşağı salınması siyasətini həyata keçirməlidir. Dövlətin qiymət siyasəti vasitəsilə iqtisadiyyatın sahələrarası balansını optimallaşdırmaq imkanları var. 2006-cı il üçün Dövlət Statistika Komitəsinin hazırladığı Azərbaycan Respub-



və Sərəncamları, Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi qanunvericilik aktları təşkil edir.

Dissertasiya işinin yerinə yetirilməsində analitik, iqtisadi-statistik, dinamika, balans və digər metodlardan istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazası** tədqiqat prosesində Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin və Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Elmi- Tədqiqat işlərinin materiallarından, internet resuslarından və məlumatlarından istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi:** Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- Azərbaycandan ərzaq ixracının spesifik xüsusiyyətləri müəyyənləşdirilmişdir;
- Azərbaycandan Avropa bazarına ərzaq istehsalının genişləndirilməsində ÜTT-yə üzvlük məsələsinin iqtisadi əhəmiyyəti araşdırılmışdır;
- Azərbaycan və Avropa İttifaqı iqtisadi əlaqələrinin daha da genişləndirilməsi üçün yeni Strateji Əməkdaşlıq Müqaviləsinin hazırlanması təklif edilmişdir;
- Azərbaycanda yeni iqtisadi model quruculuğu şəraitində Avropa bazarına ərzaq ixracının əhəmiyyəti tədqiq edilmişdir;
- Azərbaycandan ərzaq ixracının optimallaşmasına təsir edən amillər dəqiqləşdirilmişdir;
- kənd təsərrüfatında istehsal potensialından səmərəli istifadənin yüksəldilməsinin aqrar bazarın formalaşmasına təsiri müəyyənləşdirilmişdir;
- Azərbaycandan ərzaq ixracının istiqamətləri müəyyənləşdirilmişdir.

**Tədqiqatın təcrübi əhəmiyyəti aşağıdakılardan ibarətdir:**

- Azərbaycandan ərzaq ixracının davamlı iqtisadi inkişafa təsiri tədqiq edilmişdir;
- Avropa İttifaqı və Azərbaycan Respublikası arasında iqtisadi inteqrasiyanın səmərəliliyi əsaslandırılmışdır;
- Azərbaycan Respublikasında fəaliyyət göstərən ərzaq emal müəssisələrinin istehsal güclərindən səmərəli istifadə edilməsi yolları müəyyənləşdirilmişdir.

**Tədqiqatın nəticələrinin aprobasiyası:** Dissertasiya işinin nəticələri Azərbaycan Elmi Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda keçirilən konfrans və seminarlarda məruzə edilərək bəyənilmişdir. Dissertasiya işi ilə bağlı müəllifin müxtəlif

elmi nəşrlərdə məqalələri dərc edilmişdir.

Tədqiqat zamanı əldə edilən nəticələr Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzinə təqdim olunmuş və onların tətbiqinin mümkünlüyü haqqında müvafiq arayış alınmışdır. (Arayış № 03/2, "14 yanvar 2016")

**Dissertasiya işinin həcmi və quruluşu:** Dissertasiya giriş, üç fəsil, nəticə və ədəbiyyat siyahısından ibarət olmaqla 147 səhifəni əhatə edir. İşdə 16 cəvdəl və 10 şəkil verilmişdir.

## M Ü N D Ə R İ C A T

**Giriş**.......................................................................................4
**Fəsil I. Xarici ticarət siyasətinin nəzəri və metodoloji əsasları**
1.1. İxracatın nəzəri və metodoloji məsələləri .....................12
1.2. İxrac qiymətinin müəyyən olunmasının nəzəri məsələləri..18
1.3.Avropa İttifaqının Şərq Tərəfdaşlığı proqramının iqtisadi səmərəliliyi.............................................................................21
**Fəsil II. Azərbaycan Respublikasından Avropa bazarına ərzaq məhsulları ixracının mövcud vəziyyəti**
2.1. Azərbaycanda ərzaq məhsulları istehsalının mövcud vəziyyəti, beynəlxalq ticarəti və onun bəzi xüsusiyyətləri..............36
2.2. Ümumiləşdirilmiş Preferensiyalar Sisteminə uyğun ərzaq ixracı ...................................................................................57
2.3. Azərbaycandan Avropa bazarına ərzaq ixracının institutsional əsaslarıvə ixracın stimullaşdırılması üçün həyata keçirilən dövlət siyasəti..................................................................67
2.4. Avropaya ərzaq ixracının dövlət tənzimlənməsinin institusional mexanizminin təkmilləşdirilməsi................................82
**Fəsil III. Azərbaycan Respublikasından Avropa bazarına ərzaq məhsulları ixracının həcminin artırılması və strukturunun təkmilləşdirilməsi istiqamətləri**
3.1. İxrac olunan kənd təsərrüfatı məhsullarının sertifikatlaşdırma mexanizminin təkmilləşdirilməsi istiqamətləri.....................96
3.2. İxrac olunan kənd təsərrüfatı məhsullarının markalanma və qablaşdırılması prosesinin təkmilləşdirilməsi yolları....................108
3.3. Dövlətin kənd təsərrüfatı məhsulları və ərzağın idxal-ixracı üzrə iqtisadi tənzimləmə siyasətinin təkmilləşdirilməsi yolları.....124
**Nəticə və təkliflər**...............................................................137
**Ədəbiyyat siyahısı** .............................................................142



üçün; baytarlıq şəhadətnaməsi – diri heyvan və kəsilmiş ət üçün; gigiyenik sertifikat – bütün məhsullar üçün; fitosanitar sertifikat – bitki və bitki mənşəli məhsullar üçün; uyğunluq sertifikatı – əksər məhsullar üçün. Sertifikatların belə çoxsaylı olması ixrac prosesini çətinləşdirir. Yaxşı olardı ki, çoxsaylı dövlət orqanlarının cəlb edilməsi ilə müşayiət olunan sertifikatların sayı minimuma endirilsin (sertifikatlaşdırmaya sərf olunan vaxt, prosedurların sayı və maliyyə həcmi də minimuma enməlidir) və beynəlxalq miqyasda qəbul edilən sertifikatların alınmasında ixracatçılara dəstək verilsin. Azərbaycan ixracatçılarının hədəf bazarlarında standart tələblərini öyrənmək və onları bu istiqamətdə dəstəkləmək lazımdır.

5. Azərbaycan ixracatçıları xarici bazarların tələbini ödəmək üçün beynəlxalq səviyyədə qəbul edilmiş sanitar və fitosanitar normalara, o cümlədən "Qida Məcəlləsi" və Bitki Mühafizəsi Konvensiyasının tələblərinə cavab verməlidirlər. Bundan başqa, kənd təsərrüfatı sahəsində Yaxşı Kənd Təsərrürfatı Təcrübəsi və ərzaq emalı sənayesi üzrə Yaxşı İstehsal Təcrübəsi standartları da mövcuddur.

6. Avropada üzvi (orqanik) məhsulların satış bazar 13-14 milyard avro qiymətləndirilir. Ən böyük bazar 3,9 milyard illik satışa malik olan Almaniyadır.

Müvafiq olaraq ikinci və üçüncü yerləri 2,4 milyard və 2,2 milyard avroluq illik dövriyyəsi ilə İtaliya və Fransa izləyir. Avropada üzvi məhsullar bazarının illik artım tempi 10-15% arasındadır. Azərbaycan bu amili nəzərə almalıdır.Azərbaycan kimi dünya okeanına birbaşa çıxışı olmayan inkişaf etməkdə olan ölkələrə tövsiyyə ondan ibarətdir ki, xarici birbaşa investisiya cəlb etmək üçün bu ölkələr daha çox limanlara deyil, Avropa İttifaqı kimi bazarlara oriyentasiya götürməlidirlər. Xarici investisiyaların cəlbində maraqlı olan Azərbaycan üçün bir maraqlı nüans da ondan ibarətdir ki, dünyada investisiya siyasətinə kənd təsərrüfatına investisiya qoyuluşu, dünya maliyyə arxitekturasının islahatı və iqlim dəyişikliklərinin təsirinin yumşaldılması kimi qlobal çağırışların təsiri əhamiyyətlidir.

7. Azərbaycanda qeyri-neft sektoru üzrə birbaşa xarici investisiyaların artımının qeyri-neft sektorunun inkişafına təsirini təyin etmək üçün vektor avtoreqresiya modelinə (VAR) Grancer təsir testi tətbiq olunub: Testin nəticəsi göstərir ki, Azərbaycanın qeyri-neft sektorunda birbaşa xarici investisiyaların artımı bu seqmentin inkişafına müsbət təsir edir. Bu ekonometrik hesablama

məhsulları, o cümlədən, nar, qoz, fındıq, quru meyvə və s. dünyada müqayisəli üstünlüyə malikdir (70). Bundan başqa, iqtisadi ədəbiyyatda ölkənin potensial müqayisəli üstünlüyünü də qiymətləndirmək mümkündür.

Tədqiqat prosesində Azərbaycan Respublikasından Avropa İttifaqına ərzaq ixracının müasir vəziyyəti, onun dövlət tərəfindən tənzimlənməsinin istiqamətləri və mexanizmi hərtərəfli tədqiq edilmiş, nəzəri və praktiki əhəmiyyət kəsb edən aşağıdakı nəticə-lərəldə edilmişdir:

1. Qida emalı və kənd təsərrüfatı məhsullarının istehsalı Azərbaycanın qeyri-neft iqtisadiyyatının əsas komponentləridir. Onun ölkənin ümumi ixrac gəlirlərində payı 6 faizdən aşağı düşsə də, sektor neft-qaz sahəsindən sonra ölkənin ikinci ən iri

ixracatçısıdır. Bundan başqa o, ölkədə ən iri iş yerləri yaradıcı-sıdır. Sektor ölkənin işçi qüvvəsinin 40 faizə qədərini tam və ya mövsümi işlərə cəlb edir. Sektorun artım potensialı həm daxili, həm də xarici bazarlarda böyük imkanlara malikdir, xüsusilə də meyvə, tərəvəz və fındıq sahələrində. Su istifadəçiləri assosiasiyalarının və baytarlıq xidmətlərinin yaradılması kimi müsbət irəliləyişlər mövcuddur.

2. Avropa Birliyi bazarına kənd təsərrüfatı və ərzaq məhsulları ixrac edilərkən Avropa Birliyi bu tələbləri irəli sürür: məhsul istehsalının standartlaşdırılması, sertifikatlaşdırılması, etiketləndirilməsi və qablaşdırılmasının Avropa Birliyi sisteminə uyğunlaşdırılması.

İxracatda qablaşdırma mühüm əhəmiyyət kəsb edir. Burada əsas tələblər qablaşdırmanın ətraf mühitə mənfi təsirinin qarşısının alınması, eləcə də tullantıların miqdarının minimuma endirilməsi ilə bağlıdır. Ona görə də Avropa Birliyində qablaşdırmanın emal edilərək təkrar istifadə və enerji məqsədləri üçün bərpaya yararlılığı əsas götürülür. Avropa Birliyinin tələblərini beynəlxalq standart saymaq olar və Azərbaycan hədəf bazarlarından biri olduğu üçün ixracatçılar bu tələblərə cavab verməlidirlər.

3. Avropa Birliyində markalanmaya dair tələblərə gəldikdə, burada onlar məhsulun növündən asılı olaraq dəyişir. Yeyinti məhsullarının markalanmasına dair tələblər birliyin 79/112/EEC direktivində əksini tapıb. Azərbaycan ərzaq ixracını artırmaq üçün markalanma tələblərinə əməl etməlidir.

4. Azərbaycanda malların ixrac olunması üçün bu sertifikatların alınması tələb olunur: mənşə sertifikatı – bütün məhsullar üçün; keyfiyyət sertifikatı – Avropa Birliyinə ixrac olunan yeyinti məhsulları



## TƏDQİQATIN ƏSAS MƏZMUNU

İşin giriş hissəsində mövzunun aktuallığı əsaslandırılmış, problemin öyrənilmə vəziyyəti qiymətləndirilmiş, tədqiqatın məqsədi və vəzifələri, obyekti və predmeti, nəzəri – metodoloji əsasları, informasiya bazası şərh olunmuşdur. Burada tələblərə uyğun olaraq elmi yenilik, tədqiqatın təcrübi əhəmiyyəti, onun nəticələrinin sınaqdan keçirilməsi və istifadə edilməsi vəziyyəti xülasə edilmişdir.

**Dissertasiya işinin** "Xarici ticarət siyasətinin nəzəri və metodoloji əsasları**"** adlanan birinci fəslində - ixracatın nəzəri və metodoloji, ixrac qiymətinin müəyyən olunmasının nəzəri məsələləri, Avropa İttifaqının Şərq Tərəfdaşlığı proqramının iqtisadi səmərəliliyinin mahiyyətini, elmi nəzəri əsasları tədqiq olunur.

Dissertasiyanın birinci fəslində ixracatçının xarici bazalara öz məhsulların çatdırılmasının bir neçə variantlar üzrə həyata keçirə biləcəyindən, xarici bazarlara giriş formalarından bəhs olunur. Xarici bazarlara giriş formaları (malların satışı) birbaşa, dolayı və partyorluq kimi təsnifləşdirilir. Bu giriş formalarının özünə məxsus üstünlük və çatışmamazlıqları var ki, onların şərhi və seçilməsi metodologiyası beynəlxalq marketinqin mövzusu olduğundan burada onlara geniş yer verilməmişdi. Giriş formasının seçilməsi məhsuldan, onun satış xüsusiyyətindən, nəqliyyat, daşıma və gömrük xərclərindən və digər amillərdən asılı olduğundan hər bir giriş formasının təhlili əsas yer tutur. İxracyönümlü iqtisadiyyat daim dünya və yerli alimlərin diqqət mərkəzində olmuşdur. Xüsusən də iqtisadiyyatın innovativ yükünün artması ilə onun ixrac imkanları da genişlənir. Pascal L. G. və Hartley F. W. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının 21 ölkəsində 1990-2003-cü illər ərzində innovasiyaların ilkin kənd təsərrüfatı məhsulu və ərzaq ixracına təsirini qiymətləndirmək üçün təhlil apararaq belə nəticəyə gəlmişdilər ki, tədqiqat və araşdırmalar (R&D) ilkin aqrar məhsulların ixracının artmasına səbəb olmuşdur. Tədqiqat və işləmələr ilk növbədə kənd təsərrüfatı məhsulu və ərzağın rəqabətqabiliyyətini artımaqla ixrac imkanlarını genişləndirir. Modernizasiya tədqiqat və işləmə fəaliyyətinin bilavasitə istehsal prosesində təcəssümünü ehtiva etməklə ixrac potensialının artmasına xidmət edir. Azərbaycan kimi inkişaf etməkdə olan ölkələrdə tədqiqat və işləmə üçün lazım olan miqdarda resurs (kapital, insan resursu, infrastruktur və s.) məhdudluğundan bu sahədə çağırışlar qalmaqdadır. Juma C. qeyd edir ki, inkişaf etməkdə olan ölkələrdə elmi-texniki tərəqqinin tərəfdarları nanotexnologiya,

biotexnologiya, informasiya və komunikasiya texnologiyaları və coğrafi informasiya sistemi sahəsində böyük nailiyyətlər əldə ediblər. İnkişaf etməkdə olan ölkələr bu texnologiya platformaları vasitəsilə inkişaf etmiş ölkələrin iqtisadi inkişafına çatmaqla yanaşı, həm də dünya iqtisadiyyatına töhfələr verməklə ənənəvi labirintdən çıxa bilərlər. Pragnell M. qeyd edir ki, transmilli korporasiyalarla kiçik və orta sahibkarlar arasında səmərəli əməkdaşlığın qurulması inkişaf etməkdə olan ölkələrdə kənd təsərrüfatı sektorunun irəli aparılması üçün mühüm əhəmiyyət kəsb edə bilər. Pragnell M. qeyd edir ki, transmilli korporasiyalarla kiçik və orta sahibkarlar arasında səmərəli əməkdaşlığın qurulması inkişaf etməkdə olan ölkələrdə kənd təsərrüfatı sektorunun irəli aparılması üçün mühüm əhəmiyyət kəsb edə bilər.

Ərzaq istehsalının modernləşdirilməsi ölkənin tədiyyə balansına təsir göstərir. Belə ki, idxalda aqrar sahə üçün lazım olan əsas və dövriyyə vəsaitlərinin (aqrar texnika, toxum, gübrə, pestisidlər və s.) xüsusi çəkisi artdığı halda, ixracda modernləşdirmə nəticəsində rəqabət qabiliyyəti güclənmiş kənd təsərrüfatı məhsullarının çəkisi yüksəlir. Digər tərəfdən Hindistan təcrübəsi göstərir ki, aqrar sahənin modernləşdirilməsi idxal ərzaqdan asılılığı azaldır və idxalın əvəzlənməsi prosesini sürətləndirir.

Araşdırmalar göstəriri ki, Dünya bazarlarında rəqabətin artması, şirkətlərin marketinq alətlərindən biri olan qiymət faktorun əhəmiyyətini daha da artırır. Dəqiq hazırlanmış marketinq siyasəti və marketinq planı olmadan beynəlxalq bazarlarda məhsul və xidmətlər satmaq demək olar ki, mümkün deyil. Belə bir siyasətin və planın hazırlanması üçün hər şeydən əvvəl beynəlxalq bazarın araşdırılması və marketinq kompleksinin hazırlanması tələb olunur. Müxtəlif bazarlarda qiymətlərin müəyyənləşdirilməsi üçün müxtəlif amillərin nəzərə alınması vacibdir. Qiymət tələbata və satışa təsir edən əsas amillərdən biridir. Məhsul və ya xidmətlərini ixrac etmək və xarici bazarlarda müvəffəqiyyət qazanmaq istəyən iş adamı öz qiymət siyasətini düzgün müəyyənləşdirməlidir. Xarici bazarlar üçün qiymətin müəyyənləşdirilməsi zamanı həmin bazarda analoji məhsulların qiyməti, tələbat, rəqabət mühiti və s. faktorların öyrənilməsi və nəzərə alınması vacibidir. İxrac məhsullarının qiymətlərinə təsir edən amillər diqqətlə öyrənilməli və qiymət siyasəti düzgün müəyyənləşdirilməlidir. Əks təqdirdə şirkətin həmin bazarlarda uğur qazanması və istədiyi gəliri əldə etməsi demək olar ki, mümkün deyil.



aradan qaldırmaq üçün xarici ticarət şərti indeksindən istifadə edilir.

Xarici ticarət şərti indeksi ( $J_{XTS}$ ) aşağıdakı kimi hesablanır:

$$J_{XTS} = \frac{J_x}{J_m}$$

Burada Jx – ixrac üzrə orta qiymət indeksidir, Jm – idxal üzrə orta qiymət indeksidir




**Mənbə:** Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərərfindən tərtib edilib

**Diaqram 2. 2001-2014-ci illərdə əhalinin istehlak xərclərində ərzağın xüsusi çəkisi, %**

Ölkənin dünya ticarətində müqayisəli üstünlüyünü qiymətləndirmək üçün elmi ədəbiyyatda Balassa indeksindən istifadə olunur. İndeks aşağıdakı düsturla hesablanır:

$$B_{ij} = x_{ij}/x_{iw}$$

Burada $B_{ij}$-indeks, $x_{ij}$ - i məhsulunun (xidmətin) j ölkəsinin ümumi ixracında payı, $x_{iw}$ - i məhsulunun (xidmətin) dünya üzrə ixracda xüsusi çəkisidir. Əgər bir məhsulun Balassa indeksi 1-dən böyükdürsə, onda o ölkə həmin məhsul üzrə müqayisəli üstünlüyə malikdir vəəksinə, indeks 1-dən kiçik olanda ölkənin bir məhsul üzrəüstünlüyü olmur. Məsələn, 2004-ci il üzrə hesablamalar göstərir ki, (World Integrated Trade Solution database və PCTAC trade statistics məlumatları əsasında) Azərbaycanın bəzi aqrar - sənaye

İnvestisiya baxımından Azərbaycanın Avropa ilə əlaqələri dərinləşir və genişlənir. Avropa investisiyaları təkcə yeni texnologiyalar deyil, həm də Azərbaycan iqtisadiyyatının qlobal dəyər zəncirinə inteqrasiyasıdır. Azərbaycan iqtisadiyyatına investisiya yatıran xarici ölkələr arasında Avropa İttifaqı ölkələri üstünlük təşkil edir. Son 10 ildə Azərbaycanda əsas kapitala yönəlmiş xarici investisiyaların 51 faizi, qeyri-neft sektoruna qoyulmuş xarici investisiyaların isə 36 faizi Avropa İttifaqı ölkələrinin payına düşür. Sənaye, ticarət, kənd təsərrüfatı, nəqliyyat, bank işi və digər sahələrdə 1122 Avropa şirkəti Azərbaycanda qeydiyyatdan keçmişdir. Avropa İttifaqının bir çox ölkələri ilə ikiqat vergitutmanın aradan qaldırılması, sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında sazişlər imzalanmış, 13 ölkə ilə hökumətlərarası komissiya yaradılmışdır. Avropa İttifaqının üzvü olan dövlətlərin - Böyük Britaniya, Almaniya, Fransa, Çexiya, İtaliya, Lüksemburq, Avstriya, Yunanıstan, Hollandiya və Latviyanın- 2002-2011-ci illər zamanı ilkin kapitala yönəldilən investisiyalarda payı 51,05 faiz olmuşdur. 1995-2010-cu illər ərzində Aİ-nin üzv dövlətlərinin Azərbaycan iqtisadiyyatının qeyri-neft sektoruna birbaşa xarici investisiyaları 1285 mln. ABŞ dolları olmuşdur.Bundan əlavə, qeyri- neft sektoruna birbaşa xarici investisiyaların 29,7 faizi bu ölkələrin payına düşür.

İqtisadiyyat açıq olduğundan dövlətin məcmu tələbi stimullaşdırması ilə yanaşı həm də kənd təsərrüfatı məhsulları və ərzağın idxal-ixracını tənzimləməsi tələb olunur. Təklif edərdik ki, belə tənzimləmə zamanı xarici ticarət şərti, real mübadilə məzənnəsi, xarici ticarətin optimal coğrafi və valyuta strukturu nəzərə alınsın.

Əmtəənin xarici ticarət şərti və ya xalis barter ( XTŞ) aşağıdakı kimi hesablanılır:

$$\textbf{XTŞ} = P^{EX}/P^{İM}$$

Burada, XTŞ - xarici ticarət şərti, $P^{EX}$ - ixrac edilən malın dəyəri, $P^{İM}$ – idxal edilən malın dəyəridir.

Xarici ticarət şərti eyniadlıəmtəələr üzrəölkədən ixrac edilən məhsul vahidinə idxalın miqdarınıəks etdirir. Əgər müxtəlif adlıəmtəəüzrə təhlil aparılarsa onda ölkədən ixrac edilən hər hansı bir əmtəəyə düşən digər ölkədən idxal edilən başqa bir əmtəənin miqdarını göstərir.

Barter şərti təhlilin məzmununu, mahiyyətini başa düşmək üçün ən vacib göstəricidir. Lakin əmtəə qrupları və ölkə üzrə xarici ticarət şərtlərinin hesablanması və təhlilində istifadə edilmir. Bu məhdudiyyəti



Xarici bazarlarda qiymət siyasətinin müəyyənləşdirilməsinə təsir edən əsas amillər aşağıdakılardır:

- hədəf bazarında qiymətin rolu;
- qiymətin hesablanması metodu;
- yeni məhsullar üzrə qiymət siyasəti;
- müxtəlif bazarlarda eyni və ya müxtəlif qiymətlər;
- qiymətin məhsulun həyat dövrünə uyğunlaşdırılması;
- qiymət üzrə məhdudiyyətlər və s.

Dissertasiyanın birinci fəslinin Avropa İttifaqının Şərq Tərəfdaşlığı proqramının iqtisadi səmərəliliyi adlı son bölməsində ŞT-nın əməkdaşlığa cəlb edilən qonşu ölkələr üçün iqtisadi əhəmiyyəti nəzərdən keçirilir. Baxmayaraq ki, son nəticədə bu siyasət Aİ üzvlüyünü əldə etməyə yönəlməyib, ancaq əməkdaşlıqda iştirak edən ölkələr Aİ-nın bir sıra qanun və öhdəliklərini qəbul etməlidirlər. ŞT daha çox iqtisadi cəhətdən inkşaf etdirilmiş və rəsmiləşdirilmişdir. İqtisadi əməkdaşlığın daha böyük əhəmiyyətə malik olması onunla bağlıdır ki, elə Aİ özü də ilk dövrlərdə iqtisadi qurum (gömrük ittifaqı) olaraq yaranmışdır, hətta müasir dövrdə Aİ-nın iqtisadi siyasəti Avropanın siyasi quruluşunun formalaşmasında böyük rola malikdir. Son onilliklərdə Avropa planlaşdırmasının əsasında əsas iki iqtisadi proyekt dayanır: vahid bazar və vahid valyuta. Bu çətinliklərə baxmayaraq, Brüssel ŞT çərçivəsində əməkdaşlığı gücləndirməyi və dialoqu davam etdirməyi faydalı hesab edir. Beləliklə, tərəflər ŞT vasitəsilə çevik və pilləli əməkdaşlıq layihəsini həyata keçirməyə razılıq vermişdir. Bu innovativ çərçivə ŞT ölkələrinə bir sıra iqtisadi üstünlüklər əldə etmək və daha çox ümumi bazar tənzimlənməsi ilə bağlı bir sıra Avropa qanunvericiliyini qəbul etmək imkanı yaradır. Azərbaycan Respublikası ŞT çərçivəsində yaradılmış imkanlardan istifadə etməklə Avropa bazarlarına qeyri-neft ixracatını genişləndirə bilər. Bunun üçün institutsional islahatların daha da dərinləşdirilməsi, xüsusilə, lisenziyalaşdırma, qablaşdırma, markalanma, sertifikatlaşdırma və digər standartların tətbiqində Aİ tələblərinə uyğunlaşma vacib şərtdir.

İqtisadi İnteqrasiyanın Səviyyələri – azad ticarət ərazisi ticarət məhdudiyyətlərinə malik, dövlətlərarası ticarət müqaviləsini qəbul etmiş üzvlər arasında tarif və qeyri-tarif baryerlərinin aradan qaldırılması ilə, vergi ittifaqının yaradılmasının məqsədi, ölkələr arasında yaxın siyasi-mədəni əlaqələr qurmaq və iqtisadi səmərəliliyi artırmaq, ümumi bazar üzv ölkələr arasında əmtəə mübadiləsi qarşısında duran baryerləri aradan qaldırmaqla və ümumi xarici

tarifləri qəbul etməklə iqtisadi inteqrasiya istiqamətində atılmış ən mühüm addımdır.

**Dissertasiyanın ikinci fəslində** "Azərbaycan Respublikasından Avropa bazarına ərzaq ixracının mövcud vəziyyəti " öyrənilərək təhlil olunmuşdur. Bu fəsildə ərzaq məhsullarının beynəlxalq ticarəti və onun bəzi xüsusiyyətləri**,** ümumiləşdirilmiş Preferensiyalar Sisteminə uyğun ərzaq ixracı, Azərbaycan Respublikasından Avropa bazarına ərzaq ixracının institutsional əsasları, Azərbaycandan Avropaya ərzaq ixracının stimullaşdırılması üçün həyata keçirilən dövlət siyasətinin fəaliyyəti vacib məsələ kimi qarşıya qoyulur.

Ərzaq məhsullarının beynəlxalq ticarəti dedikdə bitkiçilik, heyvandarlıq, meşə təsərrüfatı, balıqçılıq məhsulları, onların emalı nəticəsində alınan yarımfabrikat və hazır məhsulların satışı nəzərdə tutulur. Ərzaq məhsulları üzrə dünya bazarında taxıl və onun emalı, zeytun yağı, bitki yağları, piylər, şirə (cecə), tərəvəz və meyvə, ət və ət məhsulları, süd məhsulları, qəhvə, kakao, çay, şəkər, balıq, dəniz məhsulları və s. daha çox xüsusi çəkiyə malikdirlər. Başqa məhsullarda olduğu kimi ərzaq məhsullarının qiymətlərində yaranan bu kimi qeyri-sabitliyin aradan qaldırılması üçün Beynəlxalq əmtəə razılaşmaları, idxal-ixrac kvotaları, bufer ehtiyatları və digər mexanizmlər vasitəsilə (qəhvə, kakao, şəkər, buğda və s. üzrə) təsir göstərirlər. 1970-2002-ci illərdə ərzaq və kənd təsərrüfatı məhsulları ixracı 52 mlrd. dollardan 441 mlrd. dollaradək artmışdır. Amma etiraf etməliyik ki, burada real qiymət fərqi daha çox olmuşdur.

Ərzaq məhsulları içərisində taxıl (buğda, arpa, vələmir, qarğıdalı və s.) ən kütləvi ərzaq hesab edilir. 2015-ci ilin məlumatına görə cəmi taxıl ixracı 279.6 mln. ton (38.6 mlrd. dollar) idxalı isə 276.9 mln. ton (83 mlrd. dollar) olmuşdur. Bütövlükdə taxılın 55 %-i ərzaq kimi, 45%-i isə müəyyən fondlara və mal-qaranın, quşların yemlənməsinə sərf edilir. Hər bir ölkənin inkişaf səviyyəsindən asılı olaraq onlarda taxılın istehlakı həcmi də fərqlənir. Beləki, inkişaf etmiş sənaye ölkələrində cəmi taxılın 25 %-i ərzağa ayrıldığı halda (başqa ərzaq məhsulları çoxdur), inkişaf etməkdə olan ölkələrdə bu göstərici 90%-ə qədərdir.Onu da göstərməliyik ki, taxıl üzrə dünya qiymətləri əsasən ABŞ bazarında formalaşır (ABŞ daha çox taxıl ixrac etməklə birja ticarətinin mərkəzi sayılır). Çin daha çox buğda ixrac etməklə yanaşı, həm də idxal ölkəsi kimi fərqlənir.

Daha çox buğda idxal edən ölkələr – Yaponiya, Braziliya, Misir, Əlcəzair, İran, İndoneziyadır. Buğda ixracında ABŞ-la yanaşı Aİ ölkələri (İlk növbədə Fransa) Hindistan, Rusiya, Kanada, Avstraliya,



olmasını təsdiqlədə bilər. Bu orqan ölkənin əlaqədar Nazirlikləri tərəfindən akreditasiya verilmiş və Aİ tətəfindən rəsmi təsdiqlənmiş orqan olmalıdır. Avropa bazarı Azərbaycan üçün ixrac coğrafiyası diversifikasiyası baxımından mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Avropa bazarlarına çıxış edərkən, qiymətləri, nəqliyyat və logistika infrastrukturu, standartlar və davamlılığı baxımdan risk almalıdır. Tamamlayıcı ticarət və ixrac oxşarlığı əsasında təhlili Azərbaycanın Aİ-nin bazarında əhəmiyyətini sübut edir. Avropa bazarlarına çıxışı genişləndirmək üçün Azərbaycan hökuməti Avropa standartlarına uyğun qablaşdırma, etiketləmə və sertifikatlaşdırmanı həyata keçirən ixracatçıları dəstəkləyir. 2014-cü il iyulun 22-də Nazirlər Kabineti "Gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydaları" haqqında 263 nömrəli qərar qəbul edib. Bu qərara əsasən, xarici ticarət əməliyyatı iştirakçısı yazılı və elektron formada bu sənədləri təqdim etməlidir: - gömrük bəyannaməsi ilə birgə nəqliyyat sənədləri; - xarici ticarətin həyata keçirilməsini təsdiq edən müqavilə; - şəxsin mallar barədə sahiblik, istifadə və (və ya) sərəncamvermə hüquqlarını təsdiq edən sənəd. Qərar dövlət başçısının "Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 3 mart 2014-cü il tarixli 119 nömrəli Fərmanının icrası üçün qəbul edilib. Fərman ölkədə sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin təkmilləşdirilməsi və əlverişli biznes mühitinin formalaşdırılması məqsədini güdür. İdxal-ixrac əməliyyatlarının sadələşdirilməsi Azərbaycandan Avropa bazarına ərzaq və kənd təsərrüfatı məhsullarının ixrac həcmini artırıb.




Mənbə: Avropa İttifaqı

**Dioqram 1. 2015-ci ildə (milyard avro) Cənubi Qafqazla Aİ arasında ticarət**

- məhsulun istismar müddəti;
- saxlanma və istifadə şəraiti;
- istehsalçının adı, ünvanı və əlaqə vasitələri;
- məhsulun mənşə ölkəsi;
- məhsulun istifadə qaydaları;
- məhsulu xüsusi tərkibi – GMO, təhlükəli maddələr və s.
- məhsullara dair spesifik tələblər- Ət və süd məhsulları, işçkilər və s.

Qeyri-neft ixracında ən başlıca şərt ixrac məhsulunun rəqabətqabiliyyətli olmasıdır. Burada milli məhsullarımızın başlıca problemi standartlaşdırma, sertifikatlaşdırma, qablaşdırma və markalanmanın beynəlxalq normalara uyğunlaşdırımasıdır. Biz bu problemi həll etməklə dünya bazarında rəqabətqabiliyyətli milli məhsul xəyallarımızı gerçəkliyə qovuşdura bilərik.

İstehsalçının malı minimal səviyyədə risklidirsə, bu zaman o sadəcə uyğunluq bəyannaməsini doldurmaqla (Declaration of Conformity), öz məhsulunu CE markasını məhsulun üzərinə yerləşdirə bilər. Uyğunluq bəyannaməsi doldurmaqla CE markasına sahib olan istehsalçının bazara çıxardığı məhsulla bağlı hər hansı bir problem və şikayət halları baş verərsə, istehsalçı özü məsuliyyət daşıyır. Uyğunluq bəyannaməsində istehsalçının detallı təsviri; məhsulun özünəməxsus xüsusiyyətləri; hər hansı bir Avropa standartları və göstəricisi; riskli məhsullar üçün “Təsdiqləyici Orqan”ın (Notified Body) identifikasiya nömrəsi və təşkilatın rəsmi möhürü göstərilir; Əgər istehsalçının malı hər hansı bir risk daşıyırsa o aşağıdakı uyğunluğun qiymətləndirilməsi prosedurları həyata keçirərək CE markalı məhsula yiyələnə bilər:

- Modul A – daxili istehsal nəzarəti;
- Modul A1- “Təsdiqləyici Orqan”ın iştirakı;
- Modul B - “CE” təsvirnin araşdırılması;
- Modul C – Tipə uyğunluq bəyannaməsi;
- Modul D – İstehsal keyfiyyəti qiymətləndirilməsi;
- Modul E – Məhsul keyfiyyəti qiymətləndirilməsi;
- Modul F – məhsulun yoxlanılması;
- Modul G – Dizayn və istehsal xüsusiyyətlərinin birgə yoxlanılması;
- Modul H – Yekun mükəmməl keyfiyyət qiymətləndirilməsi.

Burada mütləq aydınlaşdırılmalı məsələ “Təsdiqləyici Orqan” anlayışıdır. İstehsalçı məhsulunu istər ölkə daxilindəki, istərsə də xaricdəki orqan vasitəsilə məhsulun CE markası tələblərinə uyğun



Argentina, Pakistan, Türkiyə və Qazaxıstan fərqlənirlər.

Demək olar ki, bütün mütərəqqi bəşəriyyət cəmiyyətin ərzaq təhlükəsizliyinin təmin edilməsinə dair öz qüvvələrini birləşdirmişlər. 1996-cı ildə Vaşinqtonda “Dünyanın gələcəyini öyrənən cəmiyyət” yaradılmışdır. Həmin illərdən ABŞ-ın 15 institut və təşkilatında minlərlə alim bəşəriyyətin çağdaş və gələcək inkişaf meyllərini tədqiq edir.

Belə tədqiqatlar Avropada da geniş yayılmışdır. Vyanada (Avstriya) “Gələcəyin problemləri institutu”, Niderlandda “Bəşəriyyət 2000-ci ildə” beynəlxalq fondu yaradılmışdır.1968-ci ildə Ümumdünya sisteminin inkişafını modelləşdirən və proqnozlaşdıran “Roma klubu” Beynəlxalq təşkilatı yaradılmışdır. Roma klubunda “Artım həddi” barədə 1972-ci ildə geniş müzakirələr olmuşdur. Burada müəlliflər gələcək 130 il cəmiyyətin inkişaf meylini proqnozlaşdırmışlar.

Bunun üçün 5 qlobal problemi nəzərdə tutmuşlar.

1. Sürətli sənayeləşmə;
2. Əhalinin sürətli artımı;
3. Aclıq və ərzaq çatışmamazlığının geniş yayılması;
4. Təbii ehtiyatların tükənməsi;
5. Məskunlaşma mühitinin pisləşməsi.

2014-cü ilin fevral ayınadək Azərbaycan məhsullarının Aİ bazarına güzəştli tariflərlə idxalına şərait yaradan Ümumiləşdirilmiş Ticarət Üstünlükləri (GSP) rejimindən faydalanmışdır. Azərbaycan Dünya Bankı tərəfindən 3 il ard-arda yüksək səviyyəli orta gəlirli ölkələr qrupu kateqoriyasında təsnifləşdirildiyindən Aİ-nin 18 dekabr 2012-ci il tarixli qərarına əsasən Azərbaycan GSP ölkələri siyahısından çıxarılmışdır. Azərbaycanın yenidən GSP+ sisteminə qayıtması üçün imkanlar mövcuddur. Ölkəyə idxal olunan hər hansı məhsulun həcmində kəskin artım olduqda və bu artım daxili bazarda eyni məhsul üzrə yerli istehsala ciddi zərər vurduqda (yəni daxili bazara dəyən zərərlə idxal arasında səbəb nəticə əlaqəsi olarsa) onda bütün ölkələrdən idxal olunan məhsullara qoruyucu tədbirlər tətbiq olunur. Qoruyucu tədbirlərə verilmiş güzəştlərin aradan qaldırılması, kvotanın tətbiqi və ya idxal gömrük rüsumların dərəcələrinin yüksəldilməsi daxildir. Qoruyucu tədbirlər 4 il müddətinə tətbiq bütün idxalçı ölkələrə tətbiq olunur, ancaq bu 8 ilə qədər uzadıla da bilər. Qoruyucu tədbirlər yalnız idxalçı ölkənin özəl sektorunun vəsadəti əsasında araşdırılma aparıldıqdan və sübuta yetirildikdən sonra, eləcədə ÜTT üzvləri məlumatlandırıldıqdan sonra tətbiq oluna bilər.

**Cədvəl 1.**

**2017-ci ilin yanvar-iyul ayları ərzində əsas kənd təsərrüfatı məhsulları idxalının ötən ilin eyni dövrü ilə müqayisəsi**

| Mallar | Həcmi, ton | | 2017 / 2016, % | Dəyəri, min USD | | 2017 / 2016, % |
|---|---|---|---|---|---|---|
| | 2016 yanvar-iyul | 2017 yanvar-iyul | | 2016 yanvar-iyul | 2017 yanvar-iyul | |
| Diri iri buynuzlu heyvanlar | 3556.5 | 9005.1 | **2.5 d.** | 12092.9 | 16858.0 | **139.4** |
| Diri qoyunlar və keçilər | 30.5 | 963.4 | **31.5 d.** | 52.1 | 1695.7 | **32.5 d.** |
| Diri ev quşları | 163.6 | 99.7 | **61.0** | 1285.6 | 2164.5 | **168.4** |
| İri buynuzlu heyvan əti | 2560.1 | 5815.6 | **2.2 d.** | 6793.5 | 16030.4 | **2.3 d.** |
| Donuz əti | 687.1 | 1133.0 | **164.9** | 996.1 | 1277.9 | **128.3** |
| Qoyun əti və ya keçi əti | 5.7 | 15.3 | **2.6 d.** | 72.4 | 176.1 | **2.4 d.** |
| Ev quşlarının əti | 10395.2 | 17332.0 | **166.7** | 8820.4 | 20075.7 | **2.2 d.** |
| Süd və qaymaq | 2842.5 | 4252.2 | **149.6** | 4244.0 | 6683.7 | **157.5** |
| Ayran, çürümüş süd | 4116.7 | 3769.2 | **91.6** | 5731.9 | 5948.0 | **103.8** |
| Kərə yağı | 9047.5 | 9209.3 | **101.8** | 31343.6 | 40363.9 | **128.8** |
| Pendirlər və kəsmik | 3473.3 | 3240.6 | **93.3** | 10037.8 | 9781.0 | **97.4** |
| Quş yumurtası | 1930.1 | 1838.3 | **95.2** | 3110.8 | 7662.7 | **2.4 d** |
| Digər heyvandarlıq məhsulları | **X** | **X** | **X** | 1555.3 | 2537.5 | **163.1** |
| **Cəmi heyvandarlıq məhsulları** | **X** | **X** | **X** | **86136.4** | **131255.0** | **152.4** |
| Kartof | 110679.1 | 104840.4 | **94.7** | 20656.9 | 22467.9 | **108.8** |
| Soğan | 13357.3 | 271.6 | **49.1 d.** | 2671.9 | 429.3 | **6.2 d.** |
| Pomidor | 16456.5 | 3481.7 | **4.7 d.** | 7368.4 | 2134.5 | **3.5 d.** |
| Xiyar | 3664.2 | 3639.2 | **99.3** | 1792.7 | 1909.0 | **106.5** |
| Paxla | 4793.9 | 5777.1 | **120.5** | 4454.3 | 4544.7 | **102.0** |
| Kələm | 1097.0 | 5984.8 | **5.4 d.** | 192.6 | 1777.8 | **923.1** |
| Yerkökü, çuğundur | 383.4 | 1875.8 | **4.8 d.** | 86.9 | 526.1 | **605.3** |
| Tərəvəz, dondurulmuş | 413.3 | 153.5 | **2.7 d.** | 462.5 | 192.2 | **2.4 d.** |
| Digərtərəvəzlər | 4922.5 | 6165.1 | **125.2** | 2880.0 | 3471.7 | **120.5** |
| **Cəmi tərəvəz** | **155767.1** | **132189.2** | **84.9** | **40566.1** | **37453.1** | **92.3** |
| Qoz-findıq | 2330.3 | 2493.2 | **107.0** | 6636.3 | 7761.2 | **117.0** |
| Banan | 9190.6 | 14270.2 | **155.3** | 8074.5 | 11043.2 | **136.8** |
| Xurma, əncir, ananas | 3137.1 | 4213.6 | **134.3** | 3711.2 | 5213.7 | **140.5** |
| Sitrusmeyvələri | 18148.0 | 19404.4 | **106.9** | 11782.5 | 12338.6 | **104.7** |
| Üzüm | 1580.8 | 1075.5 | **68.0** | 1818.4 | 1558.7 | **85.7** |
| Alma, armud, heyva | 4153.6 | 2038.7 | **2.0 d.** | 3101.6 | 1592.8 | **1.9 d.** |
| Ərik, gilas, şaftalı | 2916.2 | 1684.5 | **57.8** | 2783.6 | 1647.0 | **59.2** |
| Qurudulmuş meyvələr | 875.1 | 903.0 | **103.2** | 1662.5 | 1504.8 | **90.5** |
| Digər meyvələr | 1917.1 | 1740.7 | **90.8** | 1130.1 | 1090.8 | **96.5** |
| **Cəmimeyvə** | **44248.8** | **47823.7** | **108.1** | **40700.6** | **43750.8** | **107.5** |
| **Cəmi meyvə-tərəvəz** | **200015.9** | **180012.9** | **90.0** | **81266.7** | **81203.9** | **99.9** |
| Çay | 6804.1 | 7052.4 | **103.6** | 23129.9 | 27217.7 | **117.7** |
| Buğdavəmeslin | 788573.9 | 512200.9 | **65.0** | 148953.5 | 96220.8 | **64.6** |
| Arpa | 1030.6 | 22197.7 | **21.5 d.** | 245.2 | 3606.8 | **14.7 d.** |
| Qarğıdalı | 60910.6 | 78352.4 | **128.6** | 12250.7 | 15892.8 | **129.7** |
| Düyü | 26673.5 | 34058.7 | **127.7** | 16859.1 | 22790.5 | **135.2** |
| Qarabaşaq, darı | 1003.3 | 5972.8 | **595.3** | 716.4 | 1467.3 | **2.0 d.** |
| Digər dənli bitkilər | 737.8 | 955.9 | **129.6** | 271.4 | 294.9 | **108.7** |
| **Yekun** | **X** | **X** | **X** | **369829.3** | **379949.7** | **102.7** |

**Mənbə: Dövlət Gömrük Komitəsi**



- Uyğunluq sertifikatı – əksər məhsulları üçün.

İstehsalçı məhsulu özü sınaqdan keçirmədikdə sertifikatlaşdırma orqanı məhsulun akkreditləşdirilmiş sınaq laboratoriyasında sınaqdan keçirilir. Nəticələr əsasında məhsulun sınağa nəticələri haqqında protokol hazırlanır. Seçilmiş sertifi¬katlaşdırma sxemində göstərildiyi halda sonra istehsalatın nəzərdən keçirilməsi və vəziyyətinin qiymətləndirilməsi aparılır. Təqdim olunmuş sənədlər, məhsulun sınağının nəticələri, istehsalatın təhlilin nəticələri əsasında sertifikatlaşdırma üzrə orqan qərar qəbul edir. Qərar qəbul edildikdə məhsulun uyğunluq sertifikatı və AZS uyğunluq nişanı haqqında lisenziya verilir. Sertifikatın qüvvədə qalma müddəti seçilmiş sertifikatlaşdırma sxemindən asılı olaraq 1 və ya iki il müəyyən edilir. Bundan sonra məhsulun üzərinə AZS uyğunluq nişanı və müvafiq standart vurula bilər. Azərbaycan iqtisadiyyatının ixracyönümlü modelinin qəbulu logistika məsələsinə yeni baxışı ortaya qoyur. 2016-cı il martın 18-də Prezident İlham Əliyev Bakı Beynəlxalq Dəniz Limanı ərazisində ticarət zonasının yaradılması haqqında sərəncam verdi. Beləliklə, 400 hektar ərazidə Dubay modelinə uyğun olaraq ticarət zonasının yaradılması, həm də iri logistik infrastrukturun formalaşdırılması deməkdir. Nəzərə alanda ki, Bakı Beynəlxalq Dəniz Limanı İrandan 200 km, Rusiyadan 250 km, Orta Asiyadan 300-400 km və qərbi Çindən 3000 km məsafədədir, onda bu logistik infrastrukturun Avrasiyanın mərkəzində nə dərəcədə əhəmiyyətli rol oynamasını müəyyənləşdirmək mümkündür. Azərbaycanda çatdırma logistikası, materialların idarə olunması, malların paylanması və malların göndərilməsinin idarə olunması kimi logistika növlərinin təhlil edilərək düzgün tətbiqi dissertasiya işinin mövzusuna uyğun olaraq həyata keçirilmişdir.

Ekoloji kənd təsərrüfatı hərəkatının beşiyi sayılan Avropada 1990-cı ildən başlayaraq ekoloji təsərrüfatçılıq sürətlə inkişaf etməyə başladı. Avropa Birliyi ölkələrində 5,8 milyon hektardan çox ərazi 140 min təsərrüfat tərəfindən ekoloji üsulla idarə olunur. Bu, ümumi kənd təsərrüfatı ərazisinin 3,4%-ni təşkil edir.

Azərbaycan Avropa İttifaqına ərzaq ixracını artırmaq üçün Avropa İttifaqının markalanmaya dair tələblərini yerinə yetirməlidir. Markalanmaya dair Aİ-nin tələbləri yeyinti məhsulları üçün aşağıdakılardı:

- yeyinti məhsulunun satılarkən adı;
- məhsulun tərkibi;
- məhsulun tərkibinin miqdarı;
- məhsulun qablaşdırmadan qabaq çəkisi;

lərdə genişləndirilməsi daimi olaraq ölkə rəhbərinin diqqətində olmuşdur. Azərbaycan Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında ixracının stimullaşdırılması ilə bağlı deyib: "İdxaldan maksimum dərəcədə asılılığımızı aradan götürmək və ixrac potensialımızı artırmaq gələcək faliyyətimiz üçün prioritet istiqamət olmalıdır. Bununla paralel olaraq ixrac bazarlarının araşdırılması və müəyyən edilməsi istiqamətində də ciddi işlər aparılmalıdır".

Dissertasiya işində məhsul ixracının tək Rusiya bazarları ilə kifayətlənməməsi və Respublikamız üçün daha önəmli olan Avropa bazarlarına ixrac imkanları ətraflı olaraq təhlil edilmişdir.

**Dissertasiyanın üçüncü fəslində** “Azərbaycan Respublikasından Avropa bazarına ərzaq ixracının həcminin artırılması və strukturunun təkmilləşdirilməsi” yolları araşdırılaraq təhlilə cəlb olunmuşdur. İxrac olunan kənd təsərrüfatı məhsullarının sertifikatlaşdırma mexanizminin təkmilləşdirilməsi, ixrac mallarının daşınması və logistika məsələləri, ixrac olunan kənd təsərrüfatı məhsullarının markalanma və qablaşdırılması prosesinin təkmilləşdirilməsi və dövlətin kənd təsərrüfatı məhsulları və ərzağın idxal-ixracı üzrə iqtisadi tənzimləmə siyasətinin təkmilləşdirilməsi yollarının istiqamətləri tədqiq edilmişdir.

Məlum olduğu kimi məhsulların sertifikatlaşdırılmasında məqsəd onların qoyulmuş tələblərə, eləcədə insan, heyvan və bitkilərin sağlamlığına və təhlükəsizliyinə, ətraf mühitin mühafizəsinə dair tələblərə uyğun olduğunu təsdiq etməkdir. Məhsulların sertifikatlaşdırılması onların sərbəst dövriyyəsinə, məhsulların təkrar sertifikatlaşdırma aparmadan idxal-ixracına şərait yaradır.

Azərbaycanda məhsulların sertifikatlaşdırılması onların istehsalı, emalı, idxalı və ixracı səviyyəsində aparılır. Bəzi sertifikatlar hər mal partiyasına, bəzi sertifikatlar isə istehsalata verilir. Ona görə hər mal partiyasına satış, idxal və ixrac edilmək üçün ayrıca, istehsalata isə müəyyən müddət üçün verilir ki, bu müddət ərzində istehsal olunan mallar həmin sertifikat əsasında satıla bilər.

Azərbaycanda malların ixrac olunması üçün və ümumiyyətlə daxili bazarda satılması üçün aşağıdakı sertifikatların alınması tələb olunur:
- Mənşə sertifikatı – bütün məhsullar üçün;
- Keyfiyyət sertifikatı – Avropa Birliyinə ixrac olunan yeyinti məhsulları üçün;
- Baytarlıq şəhadətnaməsi– diri heyvan və kəsilmiş ət üçün;
- Gigiyenik sertifikat– bütün məhsullar üçün;
- Fitosanitar sertifikat – bitki və bitki mənşəli məhsullar üçün;



Ümumiləşdirilmiş Preferensiyalar Sistemləri iş adamları üçün bir sıra imkanlar yaradır:

1. İlk əvvəl bu sistem ixracatçılarımıza imkan verir ki, siyahı üzrə müəyyənləşdirilən Azərbaycan mənşəli məhsulları Avropa bazarlarına, yəni Avropa Birliyi ölkələrinə idxal rüsumu ödəmədən ixrac etsinlər;

2. İxrac məhsullarının idxal rüsumlarından azad edilməsi Azərbaycan mənşəli məhsulların Avropa bazarlarında qiymət baxımından rəqabət qabiliyyətini artırır;

3. Eyni zamanda, əvvəlki şərtlərdə idxal rüsumu şəklində ödəniləcək vəsait məhsul istehsalının standartlaşdırma, sertifikatlaşdırma, etiketləndirmə və qablaşdırma baxımından Avropa Birliyi sisteminə uyğunlaşdırılması məqsədilə istifadə edilə bilər ki, bu da ixrac potensialının artırılması deməkdir;

4. Digər tərəfdən, həm qüvvədə olan azad ticarət rejimləri, həm də Azərbaycanın yenidən qoşula biləcəyi GSP proqramları xarici iş adamları üçün istehsal mərkəzi kimi Azərbaycanın əhəmiyyətini artırır. Çünki Azərbaycan mənşəli məhsulların digər bazarlara əlverişli şərtlərlə giriş imkanının olması, buradan digər ölkələrə ixracın həyata keçirilməsini daha cəlbedici hala gətirir. Bu isə yerli iş adamlarımız üçün həyata keçirmək istədikləri ixrac yönümlü layihələrlə bağlı xarici tərəfdaşların tapılması işini asanlaşdırır.

Ölkəmizdə dünya standartlarına uyğun, yüksək keyfiyyətli məhsulların istehsalının daha da artırılması həyata keçirilən iqtisadi siyasətin prioritetlərindəndir. Bu gün Azərbaycanda istehsal olunan məhsulların dünyanın əksər ölkəsinə ixrac edilməsi onu deməyə əsas verir ki, Azərbaycanda dünya standartlarına uyğun, yüksək keyfiyyətli məhsul istehsal edən müəssisələr mövcuddur və onların sayı davamlı olaraq artır. Bu müəssisələr öz məhsullarını ənənəvi bazarlarla yanaşı, yeni ixrac bazarlarına çıxardır və bu bazarlarda mövqelərini daha da möhkəmləndirir. Ümumiyyətlə, göstərilən işlər Azərbaycanın qeyri-neft ixrac potensialının reallaşmasında əhəmiyyətli rol oynamaqdadır. Bundan sonra da Azərbaycan ixrac imkanlarını artıracaq, iqtisadi əlaqələr daha da genişlənəcək, Azərbaycan mənşəli mal və xidmətlər dünya bazarlarında daha geniş çeşiddə təmsil olunacaq.

Dövlətin iqtisadiyyata müdaxiləsinin optimallıq səviyyəsi iqtisadi artımın sürətindən və strukturundan asılı olub ümumi bir inteqral göstəriciyə malikdir. Dövlətin iqtisadi rolu zaman keçdikcə bir sıra obyektiv və subyektiv amillərin təsiri altında dəyişir. Bu amillərin

**Cədvəl 2.**

**2017-ci ilin yanvar-iyul ayları ərzində əsas kənd təsərrüfatı məhsulları ixracının ötən ilin eyni dövrü ilə müqayisəsi**

| Məhsullar | Həcmi, ton | | 2017 / 2016, % | Dəyəri, min USD | | 2017 / 2016, % |
|---|---|---|---|---|---|---|
| | 2016 yanvar-iyul | 2017 yanvar-iyul | | 2016 yanvar-iyul | 2017 yanvar-iyul | |
| Kartof | 38198.7 | 57569.5 | **150.7** | 15772.7 | 25810.6 | **163.6** |
| Pomidor | 87564.6 | 131410.5 | **150.1** | 80358.7 | 127913.2 | **159.2** |
| Soğan | 1882.9 | 31636.5 | **16.8 d.** | 946.5 | 11437.2 | **12.1 d.** |
| Xiyar və kornişonlar | 1025.9 | 475.5 | **2.2 d.** | 1350.2 | 522.6 | **2.6 d.** |
| Yerkökü, şalğam, salat çuğunduru | 1632.2 | 1300.2 | **79.7** | 723.5 | 555.6 | **76.8** |
| Digər tərəvəz | 2667.1 | 4353.3 | **163.2** | 2684.0 | 3765.6 | **140.3** |
| **Cəmi tərəvəz** | **132971.3** | **226745.5** | **170.5** | **101835.7** | **170004.7** | **166.9** |
| Qoz-fındıq | 6410.8 | 5431.6 | **84.7** | 38677.4 | 34257.8 | **88.6** |
| Üzüm | 219.9 | 331.0 | **150.5** | 156.5 | 363.8 | **2.3 d.** |
| Qovun (qarpız) | 741.4 | 836.1 | **112.8** | 190.3 | 503.3 | **2.6 d.** |
| Almalar, armudlar və heyvalar | 8298.0 | 22481.1 | **2.7 d.** | 3400.2 | 9558.6 | **2.8 d.** |
| Ərik, albalı, gilas, şaftalı, gavalıvəgöyəm, təzə | 19396.9 | 21089.6 | **108.7** | 26331.6 | 29737.4 | **112.9** |
| Digərmeyvələr | 9172.8 | 10928.0 | **119.1** | 7537.6 | 9234.2 | **122.5** |
| **Cəmi meyvə** | **44239.7** | **61097.4** | **138.1** | **76293.6** | **83655.1** | **109.6** |
| **Cəmi meyvə-tərəvəz** | **177211.0** | **287843.0** | **162.4** | **178129.3** | **253659.8** | **142.4** |
| Arpa | 14758.9 | 0.0 | **100.0** | 2345.0 | 0.0 | **100.0** |
| Tütün xammalı | 1364.7 | 2265.4 | **166.0** | 5464.4 | 7032.8 | **128.7** |
| Pambıq | 9074.9 | 23033.4 | **2.5 d.** | 14500.3 | 35409.5 | **2.4 d.** |
| Gön-dəri xammalı (min ədəd) | 6985.6 | 4079.2 | **58.4** | 6296.7 | 9063.1 | **143.9** |
| Yun | 31.8 | 228.5 | **7.2 d.** | 95.2 | 158.3 | **166.2** |
| Digər* | **X** | **X** | **X** | 1720.0 | 5939.2 | **3.4 d.** |
| **Yekun** | **X** | **X** | **X** | **208550.9** | **311262.7** | **149.3** |

**Mənbə: Dövlət Gömrük Komitəsi**

* - Qeyd olunan qrupa diri heyvan, ət, yumurta və süd məhsullarının dəyəri daxil edilmişdir.

sırasında ilk yerdə məhsuldar qüvvələrin, elm və texnikanın inkişaf səviyyəsi, digər ölkələrlə iqtisadi rəqabət aparmaq imkanı durur. İqtisadiyyatın sahə quruluşu, kapitalın və istehsalın təmərküzləşmə



dərəcəsi də mühüm rol oynayır. Bütün bu sadaladığımız amillər müxtəlif ölkələrdə ortaya tamamilə çeşidli müdaxilə zərurəti gətirir, çünki ayrı-ayrıölkələrin iqtisadi inkişaf tarixi təcrübəsi çox fərqlənir, həmin ölkələrin əhalisi isə iqtisadi mədəniyyət və iqtisadi təfəkkür tərzi etibarı ilə bəzən heç bir-birinə bənzəmir. Məhz buna görə də dövlətin iqtisadiyyata müdaxiləsinin optimal həddini tapmaq üçün indikativ üsuldan istifadə edilir. Yəni bir neçə indikator var ki, dövlət müdaxiləsinin kifayət qədər olmaması və yaxud da lazım olandan artıqlığı barəsində yalnız bunların əsasında fikir yürütmək mümkündür və həmin indikatorlar arasında ən vacibi iqtisadi artım tempidir. Mövcud qanunvericilik bazasının Avropa İttifaqının qanunvericiliyinə uyğunlaşdırılması ilə bağlı görülmüş işlər nəticəsində yeyinti məhsullarının keyfiyyətinə və təhlükəsizliyinə effektiv nəzarətin həyata keçirilməsi, məhsulların standartlaşdırılması və sertifikatlaşdırılması sisteminin təkmilləşdirilməsi ilə bağlı aşağıda qeyd olunan normativ hüquqi sənədlər qəbul olunmuşdur:

Qeyd edək ki, yeyinti məhsullarının Avropa İttifaqı ölkələrinə ixracı ilə məşğul olan istehsal və emal müəssisələrində müvafiq sahələrdə çalışan mütəxəssisilərinin maarifləndirilməsi məqsədi ilə bir sıra işlər görülmüşdür. Belə ki, yeyinti məhsullarının Avropa İttifaqı ölkələrinə ixracını tənzimləyən Azərbaycan Respublikasının qanunvericilik aktları, eləcə də Avropa İttifaqının müvafiq sahəni tənzimləyən direktivlərin, şura reqlamentlərinin və s. aktların ingilis dilindən azərbaycan dilinə tərcümə olunmuş mətnləri istifadə üçün sahibkarlıq subyektlərinə təqdim edilmişdir.

Azərbaycanın Avropaya istiqamətlənmiş ərzaq ixrac strategiyasında məqsəd davamlı iqtisadi inkişafın və sosial rifahın təmin olunması, habelə ölkənin iqtisadi təhlükəsizliyinin və xarici siyasətinin maddi bazasının möhkəmləndirilməsindən ibarətdir. İxrac strategiyasının qurulması zamanı karbohidrogen və qeyri-karbohidrogen ixracının balanslaşdırılması vacib şərtdir.

Malayziya, İndoneziya və Çili kimi resursla zəngin ölkələrin təcrübəsi göstərir ki, onların yaratdığı "iqtisadi möcüzə"nin əsasında ixracın diversifikasiyası və dövlət maliyyəsinin idarəetməsinin təkmilləşdirilməsi dayanır. İxracın diversifikasiyası xarici birbaşa investisiyaların cəlbi, resursa söykənən klasterlərdə texnoloji inkişaf və yeni rəqabət üstünlüyünə malik sahələrin irəli aparılması hesabına mümkün olmuşdur.

Azərbaycanda qeyri-neft ixracının üfüqi və şaquli istiqamət-